**AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN APARICI QƏRB DÖVLƏTLƏRİNİN İQTİSADİ VƏ SİYASİ MARAQ DAİRƏLƏRİNDƏ**
**(Fransız alimlərinin tədqiqatlarından)**

***Məmmədova Nailə Vaqif qızı***

***Xülasə***

Məqalədə fransız tarixçilərinin əsərlərinin tədqiqi və tənqidi təhlili əsasında Qərbi Avropa dövlətlərinin Səfəvilər dövləti ərazisindəki maraq və mənafeləri təqdis olunub. Azərbaycan öz geosiyasi müstəvisi ilə öyrəndiyi dövrdə burada öz siyasi, ticarət və iqtisadi məqsədlərini güdən Qərbi Avropa dövlətlərinin diqqətini cəlb edir.“Osmanlı məsələsi”ndən istifadə etmək və eyni zamanda şərq bazarlarında hegemonluğu ələ keçirmək üçün Venesiya, Portuqaliya, Böyük Britaniya, Fransa, Hollandiya diplomatik və ticarət nümayəndəlikləri, geniş missionerlik fəaliyyəti ilə orta əsrlər Azərbaycan dövləti ilə əməkdaşlıq edir. Osmanlılarla uzunmüddətli müharibələr aparan Səfəvi dövləti Osmanlı İmperiyasına qarşı öz mübarizəsində avropalıların potensial müttəfiqi kimi görünür.

**”AZERBAIJANI STATE OF THE SAFAVID IN ECONOMIC AND POLITICAL INTERESTS OF THE LEADING WESTERN EUROPEAN COUNTRIES “**
**(BASED ON THE WORKS OF FRENCH RESEARCHERS)**

***Mammadova Naıla Vagif***

***Summary***

The article highlights the economic and political interests of the Western European states on the territory of the Safavid state based on the research and critical analysis of the French historian works. During the period under study, Azerbaijan, with its geopolitical significance, attracts the attention of the leading Western European powers, which pursue their political, trade and economic goals here. In an effort to use the "Ottoman question" and at the same time seize hegemony in the eastern markets, Venice, Portugal, Great Britain, France, Holland establish cooperation with the medieval Azerbaijani state through diplomatic and trade missions, and extensive missionary activities. The Safavid state, waging long wars with the Ottomans, appears as a potential ally of the Europeans in their own struggle against the Ottoman Empire.

***Rəyçi: t.ü.f.d., aparıcı elmi işçi Qafarzadə L.R., t.ü.f.d., dosent Ağayev R.Ə***
***AMEA-nın A.A. Bakıxanov adına Tarix institutunun Elmi Şura iclasının 2022-ci il 26 oktyabr tarixli iclasının 07 saylı protokolu***
***Daxil olma tarixi 08 fevral 2023-cü il***

**UOT:94(479.24)**

**GƏDƏBƏY BÖLGƏSİNİN BƏZİ ORTA ƏSR MÜDAFİƏ QALALARI**

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
***elminaznamazova@mail.ru***

**Xülasə**:*Gədəbəy rayonu ərazisindəki abidələr Azərbaycan tarixinə Xocalı-Gədəbəy mədəniyyəti adı ilə daxil olmuş mədəni irsin tərkib hissəsidir. Arxeoloji abidələrlə zəngin olan Gədəbəy rayonu ərazisində bir neçə istehkam-qala mövcuddur. Onlardan Söyüdlü kəndi ərazisindəki Qız qalası və Qalakənd ərazisindəki Koroğlu qalalarını göstərə bilərik. Hər iki qala ölkə əhəmiyyətli memarlıq abidəsidir. Adı çəkilən bu qalalarda indiyə qədər əsaslı arxeoloji qazıntı işləri aparılmamışdır.*

*Tədqiqatçılar arxeoloji materiallar əsasında Qız qalasının IX-X əsrlərdə, inşaat materialları və tikinti-memarlıq xüsusiyyətlərinə görə XII əsrdə inşa edildiyini söyləyirlər. Qala möhtəşəm memarlıq abidəsi olmaqla yanaşı, eyni zamanda orta əsrlərə aid zəngin arxeoloji abidədir.*

*Gədəbəy Qız qalası Azərbaycan hərb memarlığının qiymətli nümunələrindən biri olmaqla əlçatmaz dağ zirvəsində memar təxəyyülünün incisi kimi ucalır. Dağ başında kvadrat biçimli kərpicdən nəhəng tikinti işlərinin aparılması qalanı tikdirən sifarişçinin geniş imkanları olduğunu, tikintiyə böyük işçi qüvvəsinin, yüksək ixtisaslı sənətkarların cəlb edilməsini göstərir.*

*Koroğlu qalası Gədəbəy rayonun Qalakənd kəndinin şimalında yerləşir. Qala mürəkkəb, unikal memarlıq abidəsi olmaqla yaşı eyni zamanda arxeoloji abidədir.*

*Tədqiqatçı A.Məmmədov Koroğlu qalasını Gəncənin möhkəmləndirilməsinə xidmət edən feodal istehkamlrından biri olmaqla XII əsrdə inşa edildiyini söyləyir.*

**Açar sözlər**: Gədəbəy, Qız qalası, Koroğlu qalası, arxeoloji qazıntılar, Söyüdlü kəndi, Qalakənd

**Ключевые слова:** Гедабей, Девичий замок, Замок Кероглу, археологические раскопки, село Союдлу, Галаканд

**Key words:** Gadabey, Maiden's Castle, Koroglu Castle, archaeological excavations, Soyudlu village, Galakand

Gədəbəy rayonu Cənubi Qafqazda arxeoloji abidələrin ən zəngin olduğu bölgələrimizdən biridir. Gədəbəyin arxeoloji abidələri demək olar ki tarixin bütün dövrlərini əhatə edir.Gədəbəyin Orta əsr arxeoloji abidələri indiyə qədər xüsusi tədqiqat mövzusu olmamış, demək olar ki, onların xeyli qismi qeydiyyata belə alınmamış (bir neçə Orta əsr qalası və alban xristian abidəsi istisna olmaqla), abidələrdə arxeoloji tədqiqat işləri aparılmamışdır.

Azərbaycanın maddi-mədəniyyət tarixinin öyrənilməsində Gədəbəy rayonun Son Tunc-Erkən Dəmir dövrü abidələri qədər Orta əsr abidələrinin öyrənilməsi də vacibdir. Hələ eramızın III əsrindən inkişaf etməyə başlayan feodal istehsal üsulu getdikcə Azərbaycanda torpaq sahələrinin ayrı-ayrı adamların əlində toplanmasına səbəb olurdu. Hər bir feodal öz ailəsinin və əyanlarının qayğısına qalmalı, feodal müharibələri zamanı onların tam təhlükəsizliyini təmin etməli idi. Buna görə də ayrı-ayrı feodallar öz iqamətgahlarının ətrafında bir sıra müdafiə tədbirləri görməklə yanaşı, əlavə olaraq təbii cəhətdən əlçatmaz qayalar və ya dağlar üzərində möhtəşəm qalalar tikdirirdilər. [1, s. 31].

Gədəbəyin Orta əsr abidələri içərisində bu cür müdafiə qalaları da mühüm yer tutur. Abidələri demək olar ki tarixin bütün dövrlərini əhatə edən Gədəbəy rayonu ərazisində Orta əsrlərə aid bir neçə istehkam-qala mövcuddur. Onlardan Söyüdlü kəndi ərazisindəki Qız qalası və Qalakənd ərazisindəki Koroğlu qalalarını qeyd edə bilərik. Arxeoloq A. Məmmədov hər iki qala ərazisində qısa müddətli arxeoloji kəşfiyyat işləri aparmış, abidələrin dövrü və funksiyası haqqında qısa arayış vermişdir. Tədqiqatçı A.Məmmədov Koroğlu qalasını Gəncənin möhkəmləndirilməsinə xidmət edən feodal istehkamlarından biri olmaqla XII əsrdə inşa edildiyini söyləyir [2, s. 176].

Gədəbəyin abidələrlə zəngin Söyüdlü kəndindən 7 km aralıda dağ zirvəsində yerləşən Qız qalası memarlıq biçimlərinin son dərəcə monumentallığı ilə fərqlənir. Qala Şəmkir çayının sol sahilində, sıldırım qayanın üzərində yerləşməklə dəniz səviyyəsindən 1800 m yüksəklikdədir. Qayanın ətəyindən 500 m sıldırım qayalıqlarla qalaya qalxmaq lazımdır. Azərbaycan ərazisində mövcud olan dağ qalaları içərisində Qız qalası günümüzə qədər nisbətən salamat qalmışdır. [3, s. 156]

Qız qalası dağ relyefinə uyğunlaşdırılaraq inşa olunmuş və iki qatlıdır. Üst qatda, dağın zirvəsində beşbucaqlı plana malik narınqala yerləşir. Cənubdan içqalaya alt qatda inşa

olunmuş ikinci bölüm birləşir. Qala kvadrat formalı bişmiş kərpicdən inşa olunmuşdur. Gədəbəy Qız qalasının fərqləndirici konstruktiv elementlərindən biri narınqalanın bayır səthlərində maşikulların ikiqatlı olmasındadır. Divar və bürclərin ortasından kəmər kimi keçən və yuxarıda onları tac kimi tamamlayan bu iki sıra maşikullar Qız qalasının müdafiəsini xeyli gücləndirməklə yanaşı, həm də onun bədii təsir qüvvəsini artırırdı. XII əsrdə inşa olunduğu ehtimal edilən Gədəbəy Qız qalası Azərbaycan hərb memarlığının qiymətli nümunələrindən biri olmaqla əlçatmaz dağ zirvəsində memar təxəyyülünün incisi kimi ucalır [3, s.156; 4, s.82].

Mraqlı faktlardan biri də Qız qalasının bir neçə ad altında tanınmasıdır. Belə ki, qala ən çox Qız qalası adı ilə tanınsa da, ona Namərd qala, Çarek qalası (Orta əsr mənbələrində), Mamır qalası, hətta Qızıl qala da deyirlər [5].

Arxeoloq A. Məmmədov 2012-ci ildə qalada qısa müddətli arxeoloji kəşfiyyat işləri aparmışdır. Tədqiqatçı müəyyən etmişdir ki, qalanın cənubunda yeddi bürcü saxlanılır. Birinci yarusda dörd bürc, ikinci yarusda iki bürc salamat vəziyyətdə, biri isə dağılmış vəziyyətdədir. Bürclərin hündürlüyü 20 metrdir. Bürclərin bünövrəsi qaya daşı, əsas hissəsi qırmızı kərpiclə hörülmüşdür [2,s.176]. Qız qalası Azərbaycanın dağ qalaları içərisində özünün yaxşı vəziyyətdə olması, tikinti materialları və mürəkkəb memarlığı ilə seçilir. Tədqiqatçılar arxeoloji materiallar əsasında abidənin IX-X əsrlərə [2,s.49], inşaat materialları və tikinti-memarlıq xüsusiyyətlərinə görə XII əsrdə inşa edildiyini söyləyirlər [3, s.155-57].

Arxeoloq A.Məmmədov qalanın feodal hakimlərin düşməndən qorunmaq, müdafiəni möhkəmləndirmək, ətrafda yaşayan əkinçi, maldar əhalini mühafizə etmək və ərazidən keçən Zəyəm-Çaldaş-Səbətkeçməz-Arısu-Qalakənd-Turşsu, Naxçıvan keçidi Çayqarışan-Göyəbaxa aşırımı-Göyçə gölü ətrafı ilə Naxçıvana doğru istiqamətlənən və yerli əhali arasında Naxçıvan yolu adı ilə tanınmış yolu nəzarətdə saxlamaq üçün tikildiyi fikrindədir [2,s.49].

Qalanın içərisində gözlə görülə biləcək otağın qalıqları var. Onlar qırmızı kərpicdən tikilmişdir. Onlardan biri qalanın indiki girişindən soldadır. Otaq dairəvi plana malikdir. Tağvari künbəzin çox hissəsi dağılaraq otağın içərisinə tökülmüşdür. Giriş qapısı məlumdur və yarıya qədər torpaqla örtülmüşdür. Otağın ciddi dağılmaq təhlükəsi var. Otağın təmizlənməmiş vəziyyətdə hündürlüyü 2,80 m, diametri 5 m-dir.

Digər ikinci otaq dördkünc plan quruluşuna malikdir. Tədqiqatlar nəticəsində ikinci otaq tamamilə təmizlənərək uzunluğu 5 m, eni 3,35 m, hündürlüyü 3,80 m olduğu məlum olmuşdur. Qazıntıdan öncə otağın sağ və sol tərəflərində digər otaqlara açılan iki qapısının olduğu ehtimal olunurdu.

Qazıntılar zamanı isə məlum oldu ki, otağın sağ tərəfindəki qapı, sol tərəfindəki isə hücrədir. Yer üstündən görünən əlamətlərə görə otaq cənubdan şimala doğru uzanır. İkinci otağın döşəməsindən iki ədəd təndir yeri aşkar olunmuşdur. Otağın əsasən döşəməsindən orta əsrlərə aid saxsı məmulatı aşkar olunmuşdur. Onlar kiçik fraqment halında olub müxtəlif növlü və formalı saxsı qabların fraqmentlərinə aiddir. Metal məmulatı çox az aşkarlanmışdır. Əldə olunmuş arxeoloji materiallar içərisində ən maraqlı tapıntılardan biri də sümükdən hazırlanmış asmadır. Asma dörd tilli olub, bir ucu biz kimidir.

Aşkar olunmuş saxsı məmulatlarının fraqmentləri, əsasən, şirsizdir. Lakin kiçik fraqmentlər halında olsa da, şirli qab nümunələrinə də rast gəlinmişdir. Əldə edilmiş saxsı fraqmentlərinin ümumi sayı minə qədərdir. Onlar müxtəlif ölçüdə və növdə olan, fərqli qabların hissələri olub, əsasən, gövdə (470 ədəd), ağız (155 ədəd), qulp (17 ədəd), oturacaq (28 ədəd) və s. fraqmentlərdən ibarətdir.

Arxeoloji materialların xüsusilə, də saxsı məmulatının təhlili aparılmışdır. Aşkar olunmuş maddi-mədəniyyət nümunələri Orta əsr Şəmkir şəhər yerinin materialları ilə eyniyyət təşkil edir. Belə ki, arxeoloji materiallar X-XII əsrləri özündə ehtiva edir [5].

Koroğlu qalası - bəzən bu qalaya Cavanşir qalası da deyirlər. Qalanın adı ilə bağlı bəzi əfsanələrə görə guya xalq qəhrəmanı Koroğlu öz dəstəsi ilə bir müddət bu qalada yaşamışdır.

Azərbaycan ərazisində Koroğlunun adı ilə bağlı onlarla yer adları vardır. Onlara, əsasən, qərb bölgəsində, Qarabağda daha çox rast gəlinir. Gədəbəy ərazisində Koroğlu zağası, Koroğlu qayası, Çənlibel adlı yerlər də vardır. XVII əsr səyyahlarının əsərlərində Koroğlunun (əsl adı Rövşən) tarixi şəxsiyyət olması, Cəlali hərəkatının dəstələrindən birinin rəhbəri olması ilə bağlı məlumatlar vardır. Elə bu səbəbdən də qalanın XVI əsrdə tikilməsi ilə bağlı yanlış fərziyyələr var.

Koroğlu qalası Son Tunc-Erkən Dəmir dövründə inşa olunmuş siklopik tikilinin-qalaçanın üzərində inşa olunmuşdur. Siklopik tikililər Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin öyrənilməsi üçün qiymətli arxeoloji abidələrdəndir. Arxeoloji tədqiqatlarla müəyyən edilmişdir ki, son tunc-ilk dəmir dövründə Azərbaycanda, xüsusən də qərb bölgəsində əhalinin sayı xeyli artmış, iri tayfa ittifaqları meydana gəlmiş, sinifli cəmiyyətə keçid son həddə çatmışdır. Tayfalar arasında münasibətlər kəskinləşmiş, hərbi toqquşmalar artmışdır. Bu ehtiyacdan doğaraq qala divarları ilə möhkəmləndirilmiş yaşayış yerləri də meydana çıxmışdır ki, bunun ən bariz nümunəsi siklopik tikililərdir.

Koroğlu qalası Gədəbəy rayonun Qalakənd kəndinin şimalında, Şəmkir çayının sol sahilində yerləşir. Qala mürəkkəb, unikal memarlıq abidəsi olmaqla yanaşı eyni zamanda arxeoloji abidədir. Qalanın şərq tərəfi sıldırım qayalıqlardır. Koroğlu qalasının müdafiə divarları bir-birindən təxminən 10-15 m aralı iki sırada olmuşdur. Qalanın ondan çox bürcü bu günümüzə qədər nisbətən salamat vəziyyətdə qalmışdır.

Gədəbəy arxeoloji ekspedisiyası ilk dəfə olaraq 2022-ci ilin 23 may-11 iyun tarixinədək Koroğlu qalasında qısa müddətli kəşfiyyat xarakterli arxeoloji qazıntı işlıri aparmışdır. Qazıntı zamanı xeyli sayda tikinti daşları, inşaat keramikası, orta əsrlərə aid saxsı fraqmentləri, osteoloji qalıqlar (sümük qalıqları - N. E) aşkar edilmişdir.

İkinci kvadratdan 40 sm dərinlikdən tamamilə sınmış iri təsərrüfat küpü (bərpası mümükündür), küpün alt hissəsindən ağız hissəsi sınmış və nisbətən salamat qalmış cam tipli qab və bütöv halda bir ədəd dar ağızlı kiçik ölçülü qab aşkar edilmişdir. Bu təbəqədən 80-100 sm dərinlikdən saxsı fraqmentləri daha çox əldə edilmişdir. Şirli qabların bədii tərtibatında nəbati, həndəsi və zoomorf təsvirlərdən istifadə olunmuşdur. Arxeoloji materiallar, əsasən, saxsı məmulatı erkən islam dövrünü (IX əsr), eləcə də X-XII əsrləri özündə ehtiva edir. Qaladan əldə edilmiş saxsı fraqmentlərinin ümumi sayı 1500-dən çoxdur. Onlar müxtəlif ölçüdə və növdə olan, fərqli qabların hissələri olub əsasən gövdə (723 ədəd), ağız (245 ədəd), qulp (68 ədəd), oturacaq (49 ədəd) və s. fraqmentlərdən ibarətdir.

Bəhs olunan təbəqədə yanıq izlərinə və kömür qalıqlarına rast gəlinmişdir. Maraqlı faktlardan biri də yenə də ikinci kvadratdan 80 sm dərinlikdən tapılan saxsı su tüngüdür. Orta əsrlərdə bu tünglər vasitəsilə su kəməri qurulur, yaşayış yerinə su çəkilirdi. Maraqlı faktlardan biri də bu dərinlikdən artıq inşaat keramikasının aşkar olunmasıdır. Onların içərisində kirəmit, bişmiş kərpic üstünlük təşkil edir. Çox güman ki, onlar bu otağın tavanından düşmüşdür. II-IV kvadratlarda qərbdən şərqə doğru uzanan divar qalıqları aşkar olunmuşdur.

Qazıntı sahəsi iki yaruslu olub, yuxarı yarusda tikili qalığının bünövrəsi, aşağı yarusda isə təndir və ocaq yerləri aşkar edilmişdir. Təndirlər istifadəyə yarasız hala gəldikdə onlar dağıdılmamış, yanında başqa təndir qurulmuşdur. Bu Orta əsrlər dövrünün inancı ilə bağlı olmuşdur. Respublikamızın bir çox bölgələrində bu inanc bu günə qədər yaşamaqdadır. Aparılmış qazıntılar nəticəsində bir-birindən 40 sm fərqlə, iki təbəqə, hərəsində dörd ədəd olmaqla cəmi səkkiz təndir və ocaq aşkar edildi. Onların ən böyüyünün ağzının diametri 70 sm, digərlərinin isə 50-60 sm olmuşdur. Təndirlər bad üsulu ilə hazırlanmışdır.

Qaladakı maraqlı tapıntılardan biri onların (təndirlərin –E.N.) yanından tapılmış gil ocaq qurğusunun və ya buxardanın fraqmentidir. Üzərində dağ keçisi və xırda dairələrdən ibarət astral təsvirlər vardır. Forma etibarı ilə yarımdairəvi olmuşdur.

Qalanın içərisində müxtəlif tikili qalıqlarının xarabalığı vardır. İç-içə olmaqla iki göz otaq nisbətən salamat vəziyyətdə bu günümüzə qədər gəlib çatmışdır. Otaqların tavanı

tağvaridir. İçəri otaqda daim su olur. Bu səbəbdən buranın su anbarı olduğu ehtimal olunur. Qalaya suyun qaladan 3-4 km uzaqlıqda yerləşən və ətrafda ən hündür zirvə hesab olunan (3000 m) Qanlı dağdan (yerli əhali buranı Ocaq yalı adlandırır) saxsı su tüngləri vasitəsi ilə gətirildiyi ehtimal olunur. Bu otaqlarda və onun ətrafında arxeoloji tədqiqatlar aparmaq vacibdir. Bundan başqa qalanın indiki girəcəyinə yaxın bir-birindən beş-altı metr aralı olmaqla iki tikintinin qalığı var.

Qalanın mərkəz hissəsi qayalıqdan ibarətdir. Yersiz maraq və xəzinə axataranlar tərəfindən iri daşların dibi qazılaraq relyef yararsız vəziyyətə salınmışdır. Qala yerli daşlardan tikilmişdir.

Əldə olunan arxeoloji materiallar Şəmkir Orta əsr şəhər yerindən tapılmış arxeoloji materiallarla yaxın analogiya təşkil edir. İlkin tədqiqatlar eyni zamanda aşkar olunmuş arxeoloji materialların təhlili abidənin əsasən XI-XII əsrlərə aid olduğunu göstərir. Buna baxmayaraq şirli qab nümunələrinin içərisində erkən islam dövrü keramikalarına da rast gəlinir. Gələcəkdə abidədə geniş miqyaslı qazıntı işləri aparıldıqdan sonra dövrləşmə haqqında tutarlı fikirlər söyləmək olar.[6].

### *Ədəbiyyat*

1.Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. Bakı: Azərnəşr, 1993.
2.A. Məmmədov. Qədim Gəncə (Arxeoloji materiallar əsasında). Bakı, "Təknur" 2014.
3. C.Qiyasi. Nizami dövrünün memarlıq abidələri. Bakı, "İşıq" nəşriyyatı,1991.
4. Azərbaycan arxeologiyası. Alt cilddə, VI cild. Bakı, "Şərq-Qərb", 2008.
5. Alıyeva T.N. 2022- ci ildə Gədəbəy rayonunda Qız qalasında, (Orta əsr müdafiə qalası) aparılmış arxeoloji tədqiqatların geniş elmi hesabatı.
6. Alıyeva T.N. 2022-ci ildə Gədəbəy rayonunda Koroğlu qalasında , (Orta əsr müdafiə qalası) aparılmış arxeoloji tədqiqatların geniş elmi hesabatı.

## НЕКОТОРЫЕ СРЕДНЕВЕКОВЫЕ ОБОРОНИТЕЛЬНЫЕ КРЕПОСТИ КЕДАБЕКСКОГО РАЙОНА

***Намазова Эльминаз Магеррам кызы***

***Резюме***

В статье изучены некоторые средневековые оборонительные крепости Гедабекского района, который является одним из самых богатых археологическими памятниками регионов Южного Кавказа: крепость Гыз близ села Союдлу Гедабекского района и крепость Кероглу, расположенная на севере села Галакенд того же округ.

## SOME MEDIEVAL DEFENSE FORTRESSES OF GADABAY REGION

***Namazova Elminaz Maharram***

***Summary***

In the article, some medieval defense fortresses in Gadabay district, which is one of the richest regions of the South Caucasus with archaeological monuments, were studied: Gyz fortress near Soyudlu village of Gadabay and Koroglu fortress located in the north of Galakend village of the same district.

***Rəyçi: Dos. A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 02 fevral 2023-cü il tarixli iclasının 08 saylı protokolu***
***Daxil olma tarixi 08 fevral 2023-cü il***